AZƏRBAYCAN RESPUBLİKASI
GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ

Azərbaycan
Qılıncoynatma
Federasiyası

# QILINCOYNATMA ÜZRƏ AZƏRBAYCAN ÇEMPİONATI

BAKI ŞƏHƏRİ

“Təsdiq edirəm”
Azərbaycan Respublikası Gənclər
və İdman Nazirliyi

______________________

“07” may 2019-cu il

“Təsdiq edirəm”
Azərbaycan Qılıncoynatma
Federasiyası

______________________

“06” may 2019-cu il

# Qılıncoynatma üzrə Azərbaycan çempionatının

# ƏSASNAMƏSİ

## 1. Məqsəd və vəzifələr

1.1.Bu əsasnamə qılıncoynatma üzrə Azərbaycan çempionatının keçirilməsi qaydalarını müəyyən edir.

1.2.Çempionat aşağıdakı məqsəd və vəzifələri həyata keçirir:

1.2.1.**Məqsəd:**

- Qılıncoynatma idman növünün təbliğ edilməsi.

1.2.2.**Vəzifələr:**

- Qılıncoynatma idman növünün inkişaf etdirilməsi;
- Perspektivli idmançıların aşkar edilməsi;
- İdmançıların oyun təcrübəsinin artırılması;
- Milli yığma komandaya namizədlərin müəyyən edilməsi

## 2. Yarışın keçirilməsinə rəhbərlik

2.1. Yarışın keçirilməsinə ümumi rəhbərlik Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Qılıncoynatma Federasiyası tərəfindən həyata keçirilir;

2.2.Yarışların bilavasitə keçirilməsinə Azərbaycan Qılıncoynatma Federasiyası tərəfindən təsdiq edilmiş hakimlər heyəti rəhbərlik edir.

## 3. Yarışda iştirak

3.1. Yarışda idman məktəblərinin, idman cəmiyyətlərinin və idman klublarının 2006-cı il və ondan yuxarı təvəllüdlü idmançıları (kişi və qadınlar) iştirak edə bilər. Heç bir müəssisəni təmsil etməyən idmançılar fərdi şəkildə federasiyaya ərizə ilə müraciət edərək yarışda iştirak etmək hüququ əldə edə bilər.

## 4. Yarışın keçirilmə vaxtı

4.1. Yarış 03-04 iyun 2019-cu il tarixində Azərbaycan Texniki Universitetinin İdman Sarayında keçiriləcək.

## 5. Yarışların keçirilmə qaydaları və proqramı

5.1. Yarışlar Beynəlxalq Qılıncoynatma Federasiyasının müvafiq qaydalarına və Azərbaycan Qılıncoynatma Federasiyasının reqlamentinə əsasən keçirilir.

5.2. Yarışlar şəxsi xarakter daşıyır. Şəxsi yerlərin müəyyən edilməsi ilkin (qrup mərhələsi) və pleyoff (olimpiya sistemi üzrə keçirilən) döyüşlərin nəticələrinə görə müəyyən edilir.

## 6. Mükafatlandırılma

6.1. Yarışda I, II və III yerləri tutan idmançılar və məşqçilər Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən təsis edilmiş diplomlarla, Azərbaycan Qılıncoynatma Federasiyası tərəfindən isə medal və pul mükafatı ilə mükafatlandırılacaqlar.

## 9. İştirak haqqında təsdiq və sifarişlərin təqdim olunması

9.1. Yarışda iştirakla bağlı, iştirakçılar 15 may 2019-cu il tarixinə qədər (15 may daxil olmaqla) elektron qaydada qeydiyyatdan keçilməlidir və eyni zamanda texniki sifarişlər (cədvəl 1) həmin müddətə qədər baş hakimlər kollegiyasına təqdim edilməlidir. Sifarişdə hər bir iştirakçının, 3x4 ölçüdə fotoşəklinin olması və sağlamlıq haqqında arayışın təqdim olunması və ya məlumatın təmsil olunduğu təşkilatın həkimi tərəfindən təsdiq edilməsi vacibdir.

9.2. Fərdi qaydada iştirak edən idmançılar göstərilən tarixə qədər fedarasiyaya ərizə ilə müraciət edərək qeydiyyatdan keçməli, yarışda iştirakla bağlı texniki sifarişi (cədvəl 2) və sağlamlıq haqqında arayışı təqdim etməlidirlər.

**Qeyd:**

1. İdmançı haqqında verilən məlumatlarda saxtakarlıq aşkar olunarsa həmin idmançı yarışlardan kənarlaşdırılır və keçirilmiş yarışlarda göstərdiyi nəticələr ləğv olunur.

2. Yarış müddətində və yarışdan sonrakı dövrdə məlumatlarda aşkar olunan saxtakarlığa görə müəssisə rəhbərləri, məşqçisi və idmançılar məsuliyyət daşıyır.

3. Yarış vaxtı iştirakçıların davranışına və ya qaydalardan kənar hərəkətlərinə hər bir idmançının məşqiçisi və idmançı cavabdehdir.

4. Məşqçilərin qaydalardan kənar hərəkətləri, mövcud qaydalar əsasında baş hakimlər kollegiyasının qərarına əsasən qiymətləndiriləcək.

## 10.Protestlər

10.1 Protest verən məşqçi yarışdan dərhal sonra bu barədə hakimi xəbərdar etməlidir. Protestin verilməsi yarışın protokolunda öz əksini tapmalı və məşqçisi tərəfindən imzalanmalıdır.

10.2 Proteslə bağlı yekun qərar baş hakimlər kollegiyası tərəfindən verilir.

Cədvəl 1

Qılıncoynatma üzrə Azərbaycan çempionatının

# SİFARİŞ VƏRƏQƏSİ

**Komandanın təmsil etdiyi müəssisənin adı:** ______________________________

| | | | |
|---|---|---|---|
| FOTO 3x4 Möhür | 1.İdmançının A.S.A,______________<br>______________<br>Təvəllüdü______________<br>Silah növü______________<br>Məşqçisi ______________ | FOTO 3x4 Möhür | 2.İdmançının A.S.A,______________<br>______________<br>Təvəllüdü______________<br>Silah növü______________<br>Məşqçisi ______________ |
| FOTO 3x4 Möhür | 3.İdmançının A.S.A,______________<br>______________<br>Təvəllüdü______________<br>Silah növü______________<br>Məşqçisi ______________ | FOTO 3x4 Möhür | 4.İdmançının A.S.A,______________<br>______________<br>Təvəllüdü______________<br>Silah növü______________<br>Məşqçisi ______________ |
| FOTO 3x4 Möhür | 5.İdmançının A.S.A,______________<br>______________<br>Təvəllüdü______________<br>Silah növü______________<br>Məşqçisi ______________ | FOTO 3x4 Möhür | 6.İdmançının A.S.A,______________<br>______________<br>Təvəllüdü______________<br>Silah növü______________<br>Məşqçisi ______________ |

*Qeyd:*
*1.Hər şəkil üzərinə mütləq müəssisənin möhürü vurulmalıdır, əks halda idmançı qeydə alınmayacaq.*

Məşqçi: ______________ ______________ (adı, soyadı) (İmza)

Həkim: ______________ ______________ (adı, soyadı) (İmza)

Rəhbər: ______________ ______________ (adı, soyadı) (İmza)

Cədvəl 2

## Qılıncoynatma üzrə Azərbaycan çempionatının

## SİFARİŞ VƏRƏQƏSİ (fərdi idmançı üçün)

<table>
<tr><td colspan="2"></td></tr>
<tr><td>FOTO<br>3x4<br>Möhür</td><td>İdmançının A.S.A,______________________<br>______________________<br>Təvəllüdü______________________<br>Silah növü______________________<br>Məşqçisi ______________________</td></tr>
</table>

______________
(adı, soyadı) (İmza)